INTERNATIONAL MONETARY FUND
*Public Information Notice*
EXTERNAL RELATIONS DEPARTMENT

İctimaiyyət üçün məlumat No. 10/58
TƏXİRƏSALINMADAN DƏRC EDİLMƏLİDİR
13 may, 2010-cu il

Beynəlxalq Valyuta Fondu
19-cu Kücə 700, ŞQ
Vaşinqton, Kolumbiya Dairəsi
20431 ABŞ

# BVF-in İcraçı Şurası Azərbaycan Respubilikası ilə 2010-cu il IV Maddə üzrə aparılan məsləhətləşmələri yekunlaşdırdı

2010-cu il mayın 3-ü Beynəlxalq Valyuta Fondunun (BVF) İcraçı Şurası Azərbaycan Respubilikası ilə IV Maddə üzrə aparılan məsləhətləşmələri yekunlaşdırdı.

**Ümumi Məlumat**

Azərbaycan iqtisadiyyyatı qlobal iqtisadi böhranın təsirinə yaxşı davam gətirmiş, amma bu təsirdən tam qoruna bilməmişdir. 2009-cu ildə ümumi ÜDM-nin artım tempi çox böyük təəssürat yaradaraq 9.3 % olmuşdur, lakin qeyri-neft sektorunda ÜDM artımı 2008-ci ilin 16% səviyyəsindən 2009-cu ildə 3%-ə enmişdir. Neftin və digər əmtəələrin beynəlxalq qiymətlərinin əhəmiyyətli dərəcədə düşməsi büdcə və ixrac gəlirlərinin 30%-dən artıq azalmasına səbəb olmuşdur. Bundan başqa, bir sıra dövlət müəssisələri və banklar qısa müddətli xarici öhdəliklərin yerinə yetirilməsi ilə bağlı çətinliklərlə üzləşmiş, bu isə bank sistemində likvidlik çatışmazlığına və kreditvermənin kəskin azalmasına səbəb olmuşdur. Beynəlxalq əmtəə qiymətləri düşdüyü üçün orta illik inflyasiya kəskin azalaraq 2008-ci ildə 20%-dən artlq olan səviyyədən 2009-cu ildə 1.4% səviyyəsinə düşmüşdür.

Hökumət böhrana qarşı effektiv büdcə siyasəti tədbirləri həyata keçirmişdir. İlk növbədə, dövlət büdcəsində nəzərdə tutulan vəsaitin neft fondundan dövlət büdcəsinə köçürülməsinə imkan verilərək neftin qiymətinin xeyli ucuzlaşmasının büdcəyə təsiri məhdudlaşdırıldı. İkincisi, dövlət neft və allüminium şirkətlərinin xarici borc öhdəliklərini yerinə yetirmələrinə kömək etmək üçün hökumət tərəfindən böyük məbləğdə kapital və dövlət zəmanətli kreditlər təqdim edildi. Üçüncüsu, gəlirlərin azaldığı bir şəraitdə hökumət korrektə tədbirləri görərək prioritet olmaya xərcləri ixtisar etmiş və yalnız icra edilməkdə olan əsaslı investisiya layihələrini maliyyələşdirmişdir. Nəticədə, hökumət qeyri-neft büdcə kəsirini geniş mənada sabit saxlaya, sosial xərcləri isə hətta artıra bilmişdir. 2010-cu il büdcəsinin məqsədi qeyri-neft kəsirini azaltmaq, digər tərəfdən isə mənfəət və gəlir vergisi dərəcələrinin azaldılmasına imkan verməkdir.

Azərbaycan Mərkəzi Bankı (AMB) məzənnəni sabit saxlayaraq və bank sisteminə likvidlik ayıraraq maliyyə sabitliyini uğurla təmin edə bilmişdir. 2009-cu ilin əvvəlində manatın məzənnəsinin

ucuzlaşacağı gözlənilsə də, AMB uğurla müdaxilə edərək məzənnəni ABŞ dollarına qarşı fiksə etmiş, bu isə inflyasiyanı azaltmış, dollarlaşmanın davam etməsinin qarşısını almış və ev təsərrüfatları və bankların balanslarına mənfi təsirdən qaçınmağa imkan vermişdir. Likvidlik çatışmazlı və kredit şərtlərinin sərtləşməsinə cavab olaraq, AMB 2008-ci iliin sentyabr ayından 2009-cu ilin dekabr ayına qədər müddətdə depozitlər üçün ehtiyat tələbini 12%-dən 0.5%-ə, təkrar maliyyələşmə dərəcəsini isə 15%-dən 2%-ə endirmişdir. Bundan başqa, AMB müvəqqəti likvidlik çətinlikləri ilə üzləşmiş banklara təqribən 1.1 milyard ABŞ dolları (ÜDM-in 2.6%-i) məbləğində likvidlik dəstəyi vermişdir. Nəhayət, əmanətlərin sığortalanan məbləği beş dəfə artırılmış və bu, bank sisteminə inamı bərpa etməyə kömək etmişdir.

2010-cu ildə qeyri-neft ÜDM-nin artım tempinin 4.2%-ə qalxacağı gözlənilir, lakin tempin enməsi riskləri qalmaqdadır. Neft sektoru üzrə ÜDM-nin yalnız 1.3% artacağı və ümumi ÜDM-in artım tempinin yalnız 2.7% təşkil edəcəyi proqnozlaşdırılır. Qeyri-neft sektorunun artım tempinin bərpası və beynəlxalq əmtəə qiymətlərinin qalxması ilə yanaşı, 2010-cu ildə inflyasiyanın da 4%-ə qədər bir az artacağı gözlənilir. Əgər biznes nümayəndələri pessimistik əhval-ruhiyyəni saxlasalar və ya xarici tələb yalnız aşağı səviyyədə bərpa olarsa, artım tempi daha az olacaqdır.

Bundan sonra neft hasilatının artımın əsas mənbəyi olmayacağı nəzərə alınarsa, Azərbaycan iqtisadiyyatının orta müddətli perspektivi hazırda ümumi ixracın yalnız 5%-ini təşkil edən qeyri-neft ixracının iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib-çevrilməyəcəyindən çox asılıdır. Buna nail olmaq üçün, rəsmi orqanlar biznes mühitini daha da yaxşılaşdırılmağa xidmət edən qeyri-neft ixracı strategiyasını hazırlamaqda qərarlıdılar.

**İcraçı Şuranın Qiymətləndirməsi**

Direktorlar rəsmi orqanlar tərəfindən qlobal böhranın təsirinə qarşı görülən və makroiqtisadi və maliyyə sabiltiyini, eləcə də sağlam ÜDM artımını saxlamağa kömək edən müdrik iqtisadi siyasət tədbirlərini alqışlayırlar. Bundan sonra, əsas məsələ çətinliklə əldə edilmiş sabitliyi qoruyub saxlamaq və iqtisadi artım mənbələrini diversifikasiya etməkdir.

Direktorlar 2009-cu ildə büdcə gəlirlərinin azalması ilə əlaqədar rəsmi orqanlar tərəfindən görülən korrektə tədbirlərini və büdcə davamlılığının saxlanılması ilə bağlı bir daha nümayiş etdirilən qətiyyətli münasibəti bəyənmişlər. Onlar xərclərin səmərəliliyini artırmaq imkanlarını və orta müddətdə büdcə davamlılığını təmin etmək üçün qeyri-neft kəsirini əhəmiyyətli dərəcədə azaltmağın zəruriliyini nəzərə alaraq, neftin qiymətinin büdcədə nəzərdə tutulandan yüksək olmasına baxmayaraq, 2010-cu ildə xərcləri artırmamaq niyyətini dəstəkləyirlər. Direktorlar Azərbaycanın Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün prinsip və meyarlarına tam riayət edən ilk ölkəyə çevrilməsi ilə əlaqədar rəsmi orqanları alqışladılar. Onlar xərclərin daha da şəffaflaşdırılmasını, eləcə də hazırkı xərc yükünün və dövlət müəssisələrinə maliyyə dəstəyinin məhdudlaşdırılması, vergidən azadolmaların azaldılması və vergi sisteminin sadələşdirilməsini üçün islahatların aparılmasını səbrsizliklə gözləyirlər.

Direktorlar razılaşırlar ki, rəsmi orqanların məzənnə sabitliyini saxlamaq qərarı böhran zamanı ölkənin maraqlarına yaxşı xidmət etmişdir – bunun sayəsində inflyasiyanı azalmış, dollarlaşmanın davam etməsinin qarşısı alınmış, ev təsərrüfatları və bankların balanslarına mənfi təsirdən qaçınmaq mümkün olmuşdur. Onlar hesab edir ki, məzənnə sabitliyi saxlanılmaqla davamlı faydalar əldə olunacaqdır və qeyd edirlər ki, 2009-cu ildə real məzənnə tarazlaşmış səviyyəyə yaxın olmuşdur.

Direktorların qənaətincə, iqtisadiyyat daha artıq diversifikasiya olduqca və beynəlxalq kapital bazarlarına daha çox inteqrasiya etdikcə, orta müddətli dövrdə daha çevik məzənnənin daha çox faydalar gətirəcəyini gözləmək olar. Onlar bu sahədə BVF əməkdaşları və rəsmi orqanlar arasında sıx əməkdaşlığın faydalı olacağını hesab edirlər.

Direktorlar böhran dövründə rəsmi orqanların pul və maliyyə sektorunda gördüyü məharətli cavab tədbirlərini alqışlayırlar – bura eləcə də ehtiyat tələblərinin və təkrar maliyyələşmə dərəcəsini kəskin azaldılması, habelə bank sisteminə əhəmiyyətli likvidlik dəstəyinin göstərilməsi aiddir. Aşağı səviyyədən qalxsa belə, qeyri-işlək kreditlərin artmasını nəzərə alaraq, Direktorlar bank sisteminin yaxından davamlı monitorinqini aparmağın və bank nəzarətini gücləndirməyin zəruriliyini vurğuladılar. Maliyyə sektoru sağlamlaşdıqca və kreditvermənin artım tempi bərpa olduqca, rəsmi orqanlar böhranla bağlı olan likvidlik dəstəyindən tədricən uzaqlaşmalıdılar ki, büdcə riskləri məhdudlaşdırılsın və inflyasiyanın yüksəlməsinə yol verilməsin. Direktorlar pul siyasətində keçidi təkmilləşdirmək və qeyri-neft sektorunun kreditdən istifadə imkanlarını yaxşılaşdırmaq, bank sektorunun konsolidasiyasına kömək etmək və Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsi üçün rəsmi orqanları islahatları qətiyyətlə davam etdirməyə çağırır. Onlar çirkli pulların yuyulması/ terrorizmin maliyyələşdirilməsi ilə mübarizə çərçivəsinin gücləndirilməsini alqışladılar və bu irəliləyişin davam etdiriləcəyini gözləyirlər.

Direktorlar vergi, gömrük və maliyyə sektoru islahatlarını davam etdirərək rəqabət qabiliyyətinin və biznes mühitinin yaxşılaşdırılmasına əsas yer verən qeyri-neft ixracı strategiyasının hazırlanması ilə bağlı rəsmi orqanların qətiyyətini alqışlayırlar. Onlar rəsmi orqanların Ümumdünya Ticarət Təşkilatına üzvlüklə bağlı nümayiş etdirdiyi davamlı qətiyyəti müsbət qiymətləndirirlər.

## Azərbaycan: Seçilmiş İqtisadi Göstəricilər, 2005–10

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 İlkin | 2010 Proq. |
|---|---|---|---|---|---|---|
| | (İllik dəyişiklik, faizlə) | | | | | |
| Real iqtisadiyyat | | | | | | |
| ÜDM sabit qiymətlərlə | 26.4 | 34.5 | 25.0 | 10.8 | 9.3 | 2.7 |
| Neft sektoru 1/ | 65.4 | 62.0 | 37.3 | 6.9 | 14.8 | 1.3 |
| Qeyri-neft sektoru 2/ | 8.2 | 12.1 | 11.3 | 15.7 | 3.0 | 4.2 |
| İstehlak Qiyməti İndeksi (dövrün sonuna) | 5.5 | 11.4 | 19.5 | 15.4 | 0.9 | 4.0 |
| | (ÜDM faizi ilə, başqa vahidlə ifadə | | | | | |
| İcmal hökumət | | | | | | |
| Ümumi gəlirlər və qrantlar 3/ | 25.1 | 28.0 | 28.2 | 51.1 | 41.6 | 48.1 |
| Ümumi xərclər 3/ | 22.7 | 27.4 | 25.9 | 31.1 | 34.8 | 29.9 |
| Büdcə kəsiri 4/ | 2.6 | -0.2 | 2.6 | 20.8 | 6.8 | 18.2 |
| İlkin qeyri-neft büdcə kəsiri (qeyri-neft ÜDM faizi ilə) | -12.6 | -31.1 | -28.3 | -38.2 | -38.5 | -33.8 |
| | (İllik dəyişiklik, faizlə) | | | | | |
| Pul və kredit | | | | | | |
| Ehtiyat pul (manatla) | 7.5 | 132.6 | 101.4 | 48.5 | 1.7 | 23.6 |
| Geniş mənada pul kütləsi (manatla) | 15.8 | 168.3 | 107.3 | 38.2 | 1.5 | 18.0 |
| Bank sektorundan iqtisadiyyata kredit | 53.0 | 63.6 | 96.5 | 55.6 | 18.4 | 10.0 |
| Geniş mənada ümumi pul kütləsinin dövriyyə sürəti (M3) 5/ | 5.2 | 4.8 | 3.8 | 3.0 | 3.1 | 2.8 |
| | (ÜDM faizi ilə, başqa vahidlə ifadə | | | | | |
| Tədiyə balansı | | | | | | |
| Cari hesab balansı (-, kəsir) | 1.3 | 17.6 | 27.3 | 35.5 | 23.6 | 25.2 |
| Xarici dövlət borcu | 12.5 | 9.4 | 7.7 | 6.5 | 7.9 | 10.1 |
| Məcmu rəsmi beynəlxalq ehtiyatlar | | | | | | |
| Milyon ABŞ$ ilə, dövrün sonuna | 1,178 | 2,500 | 4,273 | 6,467 | 5,364 | 6,653 |
| İdxal ayları ilə, c.i.f. | 1.7 | 3.2 | 4.5 | 7.8 | 4.8 | 5.6 |
| Məzənnə | | | | | | |
| Dövrün sonuna (Manat/ABŞ$) | 0.92 | 0.87 | 0.85 | 0.80 | 0.80 | … |
| Real effektiv məzənnə (faizlə dəyişiklik, "-"=ucuzlaşma) | 6.8 | 9.2 | 9.0 | 14.3 | 10.8 | … |

Mənbələr: Azərbaycanın rəsmi orqanları və BVF əməkdaşlarının

1/ Neft və qaz hasilatı və emalı daxil olmaqla.
2/ Neft və qaz nəqli (qərb marşrutu ilə nəql istisna olmaqla), habelə dövlət neft şirkətinin ödədiyi ixrac vergisi daxil olmaqla.
3/ Dövlət neft şirkətinə təqdim edilən vergi güzəştləri daxil olmaqla.
4/ Statistik uyğunsuzluqlar nəzərə alınmışdır.
5/ Ümumi daxili tələbi (karbohidrogen idxalı istisna olmaqla) orta geniş pul kütləsinə bölməklə müəyyən edilir.